

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 48 (20.949)

*14 mart 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Fransa Respublikasının keçmiş Baş naziri Dominik de Villpeni qəbul etmişdir.

Keçmiş Baş nazir Dominik de Villpen ölkəmizin əldə etdiyi yüksək iqtisadi inkişaf tempinə görə Prezident İlham Əliyevi təbrik etdi. Azərbaycandakı iqtisadi artıma toxunan fransalı qonaq bu cür əhəmiyyətli nəticələrin Avropada da olmasını arzu etdiklərini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı ilə yanaşı, ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsinə də böyük önəm verildiyini bildirdi. Fransanın Azərbaycan üçün əhəmiyyətli tərəfdaşlardan biri olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında güclü siyasi əlaqələrin mövcud olduğunu dedi. İqtisadi sahədə əlaqələrin inkişafına toxunan Prezident İlham Əliyev əməkdaşlığımızın bu istiqamətdə daha da genişləndirilməsi üçün də qarşılıqlı marağın olduğunu bildirdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Almaniya Federativ Respublikasının keçmiş kansleri Gerhard Şröderi qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Rusiya Federasiyasının Sverdlovsk Vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

## "Muxtariyyət ili" ilə əlaqədar silsilə tədbirlər keçirilir

***Naxçıvan Tibb Kollecində muxtar respublikanın yaradılmasının 90 illiyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə kollecin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İlhamə Mustafayeva açaraq 2014-cü ilin Naxçıvanda "Muxtariyyət ili" elan olunduğunu bildirmiş, Azərbaycanın ən yeni tarixində Naxçıvanın yeri və rolu haqqında danışmışdır.***

Sonra kollecin müəllimlərindən Tutu Fərəcovanın, Zəminə İsmayılovanın, Əntiqə Qasımovanın və Mehri Seyidbəylinin məruzələri dinlənilmişdir. Məruzələrdə qeyd olunmuşdur ki, Naxçıvanın əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək Yolunun üzərində yerləşməsi onu fatehlərin, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirmişdir. Ərazisi dəfələrlə müharibə meydanına çevrilsə də, Naxçıvan heç zaman əyilməmiş, xalqımıza məxsus mədəniyyəti, adət-ənənələri, ən vacibi isə tarixi ərazisini qoruyub saxlamışdır. Hələ XII əsrdə Naxçıvan şəhəri qüdrətli Atabəylər dövlətinin paytaxtı olmaqla bölgənin inkişafına, müdafiə qabiliyyətinin gücləndirilməsinə, inzibati idarəçiliyin formalaşmasına özünəməxsus töhfələr vermiş, milli dövlətçilik tariximizdə mühüm rol oynamışdır.

Bildirilmişdir ki, ötən əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu diyarı Ermənistana birləşdirmək üçün bütün vasitələrə əl atmışlar. Bölgə əhalisinin böyük müqaviməti və qəhrəmanlığı nəticəsində Naxçıvan Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış və son nəticədə, ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Beynəlxalq Moskva və Qars müqavilələri Naxçıvan diyarının tarixi taleyini, onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalmaq imkanını reallaşdırmışdır. Tarixi proseslərin inkişafının nəticəsi olaraq, Naxçıvan 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır. Vurğulanmışdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində – bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasında, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Həmin dövrdə muxtar respublika müxtəlif çətinliklərə düçar olsa da, xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsində Naxçıvan bu vəziyyətdən çıxa bilmiş və bugünkü dinamik inkişaf yoluna qədəm qoymuşdur. Blokadanın çətinliklərinə baxmayaraq, son 18 ildə muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilmiş, Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoymuş, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur.

Sonda elektron lövhədə Naxçıvanın tarixindən bəhs edən sənədli film nümayiş etdirilmişdir.

***Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət idman və gənclər siyasəti muxtar respublikamızda uğurla davam etdirilir.***

## Uşaq-Gənclər Şahmat Məktəbi üçün yeni bina tikilir



Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, müxtəlif idman obyekti və qurğularının yaradılması təkcə paytaxt Naxçıvan şəhərini deyil, bölgələrimizi də əhatə edir. Muxtar respublikamızın ən gənc rayonlarından olan Kəngərli rayonunda Uşaq-Gənclər Şahmat Məktəbi üçün yeni binanın tikilməsi də görülən işlərin davamıdır.

İş icraçısı Hicran Əliyevin verdiyi məlumata görə, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq binanın tikintisinə 2013-cü ilin noyabr ayından başlanılıb. Hazırda binanın son mərtəbəsində betonqəlib işləri aparılır, birinci mərtəbədə isə arakəsmələrin hörülməsi davam etdirilir. Bina istifadəyə tam hazır olduqdan sonra zirzəmi hissədə qazanxana, bufet və sinif otaqları, ikinci mərtəbədə 4 sinif otağı, üçüncü mərtəbədə sinif otaqları ilə yanaşı, müəllimlər otağı və kompüter otağı yerləşəcək. Sonuncu mərtəbə isə oyun zalı və hakim otağı üçün nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsi tərəfindən tikintisi davam etdirilən obyektdə, əsasən, yerli tikinti materiallarından istifadə edilir, təhlükəsizlik qaydalarına ciddi əməl olunur.

## Növbəti sığorta maarifləndirməsi tədbiri

***İqtisadi və sosial inkişafın sürətlənməsi ilə cəmiyyətdə yaranıb genişlənən mühüm tələbatlardan biri də sığorta olunmaq, onun imkanlarından istifadə etməkdir. Ona görə də sığortanın bir ehtiyac kimi dərk olunması, onun ümumi bir mədəniyyət normasına çevrilməsi üçün işlər aparılması, maarifləndirici tədbirlər vasitəsilə adamların bu zəruri sahəyə marağının artırılması mühüm əhəmiyyət daşıyır. Bu il yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə verilən tapşırıqlara uyğun olaraq, dünən növbəti maarifləndirici tədbir Naxçıvan Dövlət Universitetində təşkil olunmuşdur. Tədbiri universitetin rektoru, professor Saleh Məhərrəmov açmışdır.***



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov sığortanın ümumi mahiyyətindən danışmış, sığorta müqavilələrinin bağlanılması işlərinə, qanunda nəzərdə tutulmuş şərtlərin əhəmiyyətinə diqqəti cəlb etmişdir. Qeyd olunmuşdur ki, baş verən müxtəlif təsadüfi bədbəxt hadisələr nəticəsində vətəndaşlara dəyən maddi zərərlərin əvəzinin ödənilməsi məqsədilə hazırda Naxçıvan Muxtar Respublikasında 8-i icbari olmaqla, 26 növdə sığortalanma tətbiq olunur. Bu sığorta müqavilələrinə qoşulmaqla insanlar daşınmaz əmlakını, avtomobilini, mülki məsuliyyətini sığortalayır, öz gələcəyini zəmanət altına alır.

Bildirilmişdir ki, muxtar respublikada sığorta işinin təkmilləşdirilməsi istiqamətində son illərdə aparılan məqsədyönlü işlər nəticəsində sığortaolunanların sayı xeyli miqdarda artmış, sığorta haqlarının həcmi çoxalmışdır. Bu da müxtəlif təbii və texnogen hadisələr nəticəsində insanlara dəymiş maddi zərərlərin əvəzinin ödənilməsinə imkan yaratmış, insanların sığortaya inamını artırmışdır.

Sonra universitetin müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Mehriban İmanova tədbir iştirakçılarına sığorta fəaliyyətinin bəzi nəzəri məsələləri haqda məlumat vermiş, risklərin sığortalanmasının əhəmiyyətindən danışmışdır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

## Yeni inzibati bina inşa olunur

Muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri "Muxtariyyət ili"ndə həcmini bir qədər də genişləndirməklə həyatımızın bütün sahələrini əhatə edir. Belə qayğıdan regionumuzun yanğın təhlükəsizliyi infrastrukturu da bəhrələnib. Ötən illərdə muxtar respublikanın müxtəlif ünvanlarında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rayon şöbələri üçün müasir tələblərə cavab verən yeni binalar inşa olunub, onların maddi-texniki bazaları gücləndirilib. Hazırda Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yeni inzibati binanın inşası sürətlə davam etdirilir. İnzibati hissədən, təlim qülləsindən və anbarlardan ibarət olacaq binanın birinci mərtəbəsində növbətçi yanğınsöndürmə xidmətinin fəaliyyətini təmin edən otaqlar və texniki qaraj yerləşəcək. Burada sinif otağı, yataqxana, yeməkxana, istirahət otağı, camaşırxana və qazanxana, binanın ikinci mərtəbəsində isə iş otaqları və müşavirə zalı əməkdaşların ixtiyarına veriləcək. Sinif otağında şəxsi heyətin təlimatlandırılması üçün lazımi şərait yaradılacaq, məlumat stendləri və kitabçalar qoyulacaq.

Dispetçer otağında mərkəzi radiorabitə sistemi quraşdırılacaq. Binanın həyətində geniş abadlıq işləri aparılacaq, yaşıllıqlar salınacaq.

"Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin bir qrup inşaatçısı öhdəsinə götürdüyü obyektin tikintisini vaxtında başa çatdırmaq üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərir.

## Naxçıvan şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması davam etdirilir

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, ölkəmizdə su və kanalizasiya sistemləri də yenidən qurulur. 2009-cu ildən etibarən muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və rayon mərkəzlərində də içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanılmışdır. Artıq Naxçıvan şəhərində və rayon mərkəzlərində tikinti işlərinin əsas hissəsi başa çatdırılmışdır.

Layihə çərçivəsində indiyədək 2,88 kilometr uzunluğunda suqəbuledici qurğunun (kaptajın), Babək rayonunun Şıxmahmud kəndi ərazisində həcmi 10000 kubmetr olan 2 ədəd və həcmi 5000 kubmetr olan 1 ədəd su anbarlarının tikintisi, suqəbuledicidən su anbarlarına qədər 6,35 kilometr şüşəlifli boru xəttinin, su anbarlarından Naxçıvan şəhərinə qədər uzunluğu 7,5 kilometr olan şüşəlifli qoşa boru xətlərinin çəkilişləri, həmçinin Naxçıvan şəhər əhalisini Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin etmək üçün gün ərzində saniyədə 472 litr sutəmizləmə gücünə malik sutəmizləyici qurğunun tikintisi başa çatdırılmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsindən verilən məlumata görə, bu günə qədər Naxçıvan şəhərində müxtəlifdiametrli borularla 206 kilometr uzunluğunda kanalizasiya şəbəkəsinin, 219,5 kilometr uzunluğunda su şəbəkəsinin tikintisi aparılmış və 18 min 970 ev birləşmələri qoyularaq sayğaclar quraşdırılmışdır. Hazırda Naxçıvan şəhərinin Əliabad qəsəbəsi, Əliqulu Qəmküsar küçəsi, "Atabəylər" və Xətai məhəllələrində su və kanalizasiya şəbəkələrinin tikintisi davam etdirilir. Tikinti işləri aparılarkən keyfiyyət amilinə xüsusi diqqət yetirilir.

Naxçıvan şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması tədbirlərinin 2014-cü ildə başa çatdırılması nəzərdə tutulmuşdur.

**Xəbərlər şöbəsi**

*Hər dövr insanlarda özünəməxsus baxış bucağı formalaşdırır. Bu baxışlar, əsasən, cəmiyyətin tələbləri üzərində qurulur. Lakin bəzən tarixdə cəmiyyətdə birbaşa gələcəyə baxış formalaşdıran proseslər də baş verir. Fikrimizi belə aydınlaşdıraq: sovet dönəmində muxtar respublikamızın müəyyən kəndlərində müxtəlif inzibati binalar tikilirdisə də, həmin quruculuq tədbirləri kompleks xarakter daşımırdı. Planlı iqtisadiyyat üzərində qurulan layihələrdə bəzən yüksəkvəzifəli bir məmurun filan kənddən olması da işlərə təsir edirdi. İstənilən kənddə yeni tikilmiş monoton bir obyektə gedən yollar isə daşlı-kəsəkli, palçıqlı kənd küçələrindən keçirdi. Bu yolların nə zamansa yenidən qurulacağına heç birimiz inanmazdıq. Sanki kənd yolları belə olmalı idi. Bundan əlavə, sakinlər bəzən bir problemin həlli üçün fərqli ünvanlarda yerləşən obyektlərə baş çəkməli, "əl parçası boyda bir kağız" almaq üçün, necə deyərlər, günlər qurban verməli idilər. Bütün bunların fonunda hər kəs rahat yaşayışın kənddən uzaqda – şəhərlərdə olduğunu düşünür, yeganə çıxış yolunu kəndi tərk etməkdə görürdü. Doğrudur, bu qeyd etdiklərimiz ildən-ilə nostalji hisslərlə xatırlansa da, əlahəzrət fakt faktlığında qalır.*

# Xok: inkişafın müasir mənzərəsi



Muxtar respublikamızın kəndlərində neçə illər bundan əvvəl salınmasına başlanılmış kənd mərkəzləri, sözün həqiqi mənasında, kəndlərimizə bir quruculuq mədəniyyəti gətirib. Son illər regionda 100-dən artıq kənd mərkəzinin tikilib istifadəyə verilməsi, əslində, əhalisinin sayı yüzminlərlə ölçülən böyük bir şəhərin tikilib başa çatdırılmasından da mühüm əhəmiyyət daşıyır. Nəzərə alaq ki, bütün bu tədbirlər həm də heç bir yaşayış məntəqəsinə fərq qoymadan, ucqar dağ kəndlərindən başlanılmaqla həyata keçirilir. Qədim yurd yerlərimizdən biri olan Kəngərli rayonunun Xok kəndi də müasirləşən yaşayış məntəqələrimizdən biridir.

Kənddə aparılan quruculuq tədbirlərinin bir hissəsini yol infrastrukturunun yenilənməsi təşkil edir. Ümumi uzunluğu 7,6 kilometr olan kənddaxili avtomobil yolu iki hərəkət zolağından ibarətdir. Yenidənqurma işləri zamanı yolda 80 su keçidi tikilmiş, beton kanal çəkilmiş, yola asfalt örtük salınmışdır.

Xok kəndi Kəngərli rayonunun böyük yaşayış məntəqələrindən biridir. Son statistik məlumata görə, əhalisi 5760 nəfərdən çoxdur. Hərtərəfli uğurları ilə yadda qalan "Heydər Əliyev ili" Xok kəndinə də yeni uğurlar gətirmişdir. Belə ki, ötən il kənddə yeni sosial obyektlər istifadəyə verilmişdir.

Bəri başdan deyim ki, istifadəyə verilmiş yeni tikililərin hamısı kəndin şimal səmtində, bir mərkəzdə yerləşir. 1080 yerlik orta məktəb binası öz əzəmətli görünüşü ilə göz oxşayır. Burada 60 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 4 kompüter, 2 müəllimlər otağı, kitabxana, idman zalı və bufet vardır. Müasir informasiya-kommunikasiya texnologiyalarının təhsildə tətbiqini nəzərə alaraq, məktəbdə 76 kompüter quraşdırılmış, 4 elektron lövhəli sinif yaradılmışdır. Şagirdlərin dəqiq elmlərin tədrisi zamanı praktik biliklərin mənimsənilməsi məqsədilə fizika, kimya, biologiya laboratoriyaları da lazımi avadanlıqlarla təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri məktəbin açılış mərasimində çıxış edərək demişdir: ***"Məktəb işinin təkmilləşdirilməsi, təhsilin səviyyəsinin yüksəldilməsi ölkəmizin gələcəyinə xidmət edir. Müəllimlər bilməlidirlər ki, onlar ölkəmizin gələcəyini hazırlayırlar. Şagirdlər isə unutmamalıdırlar ki, onlar bu gələcəyin əsas təminatçısıdırlar. Ona görə də hər bir ümumtəhsil məktəbində müəllim tələbkarlığı və şagird çalışqanlığı ön planda olmalıdır. Muxtar respublikada bu işlərin görülməsi üçün lazımi şərait yaradılmış, müasir məktəb binaları tikilmiş, təhsil ocaqları lazımi tədris avadanlıqları ilə təmin olunmuşdur. Xok kənd tam orta məktəbinin müasir tədrisin tələbləri səviyyəsində quraraq kollektivin istifadəsinə verilməsi də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır".***

Qeyd edək ki, son illər təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlar bir sıra uğurların əldə edilməsi ilə nəticələnmişdir. Xok kənd tam orta məktəbinin direktoru Rəhman Həsənovun verdiyi məlumata görə, ötən tədris ilində məktəbin 64 məzunu olmuşdur. Onlardan 16-sı ali məktəblərə, 5-i orta ixtisas məktəbinə, 4-ü Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuş, 2 məzun 500-700 intervalında bal toplamışdır.

Kənddə olduğumuz zaman Xok kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mübariz Əliyevlə birgə yeni istifadəyə verilmiş obyektlərlə yaxından tanış olmaq imkanı əldə etdik. Məlumat üçün deyək ki, burada kompleks quruculuq tədbirləri aparılmış, kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzi də tikilmişdir. İki mərtəbədən ibarət olan kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, kənd mədəniyyət evi və 83 yerlik zal yerləşir. Muxtar respublikamızın digər yeni kənd mərkəzlərində olduğu kimi, burada da rabitə xidmətinin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülmüş, mərkəzdə yerləşən rabitə evində poçt bölməsi yaradılmış, bank xidməti təşkil olunmuşdur. Eyni zamanda burada 820 nömrəlik avtomat telefon stansiyası quraşdırılmışdır.

Xok kəndinin böyük yaşayış məntəqəsi olduğu nəzərə alınaraq burada ikimərtəbəli həkim ambulatoriyası da tikilərək əhalinin istifadəsinə verilmişdir. Binada 11 otaq, o cümlədən stomatoloq üçün kabinə, pediatr, doğuş, peyvənd və manipulyasiya otaqları, həmçinin aptek, palata yerləşir. Ambulatoriya lazımi tibbi avadanlıqlar və dərman vasitələri ilə təmin olunmuşdur. Haliyədə ambulatoriyada 11 tibb işçisi sakinlərə xidmət göstərir.

Kənd sakinlərinin istifadəsinə verilmiş yeni obyektlərdən biri də burada yaradılmış xidmət mərkəzidir. Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. Satış mağazalarında müştərilərə, əsasən, gündəlik tələbat malları, o cümlədən yerli kənd təsərrüfatı və sənaye məhsulları təqdim olunur.

Mübariz Əliyev qeyd edir ki, kənddə fəaliyyət göstərən dövlət qurumları, eyni zamanda səhiyyə, təhsil, mədəniyyət müəssisələri əvvəllər şəraiti olmayan, köhnə tikililərdə yerləşirdi. Təbii ki, bu da müxtəlif çətinliklər yaradırdı. Xüsusilə qış aylarında həmin müəssisələrin istiliklə təminatı, demək olar ki, mümkün deyildi. Lakin kənddə yeni sosial obyektlərin istifadəyə verilməsi ilə mövcud çətinliklər aradan qaldırılmış, bütün qurumların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. İnzibati ərazi dairəsi üzrə nümayəndə ilə kəndin təsərrüfat qayğıları ilə bağlı da söhbətləşirik. Müsahibim qeyd edir ki, Xok kəndinin sakinləri öz dolanışıqlarını həmişə təsərrüfat vasitəsilə təmin ediblər. Hazırda kənd təsərrüfatı yenə də əhali üçün əsas məşğuliyyət sahəsidir. Kənddə 1800 başdan çox iribuynuzlu, 15 min başdan artıq xırdabuynuzlu heyvan saxlanılır. Kəndin əkinəyararlı torpaqları indi zəhmətkeşlərin əsl dolanışıq mənbəyi rolunu oynayır. Həmin ərazilərdə ötən ilin sonunda payızlıq əkin üçün 564 hektarda taxıl əkini keçirilmişdir ki, bunun da 437 hektarını buğda sahələri təşkil edir. Bundan əlavə, muxtar respublikada meyvəçilik və tərəvəzçiliyin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Xok kəndində də uğurla yerinə yetirilir. Təkcə ötən il bu məqsədlə 8 hektar sahədə alma bağı salınmışdır. Əldə edilən məhsulların hər həftə kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına çıxarıldığını qeyd edən icra nümayəndəsi kəndin zəhmətkeş təsərrüfat sahiblərinin uğurlarını da dilə gətirir. Məlum olur ki, bu təsərrüfat sahiblərindən Xaləddin Zeynalov 17 baş cins mal-qara, Qərib Tağıyev 2000 baş xırdabuynuzlu heyvan, Nazim Abdullayev 10-u cins olmaqla, 150 baş iribuynuzlu mal-qara sahibidir. Dövlət tərəfindən verilən güzəştli kreditlər, kənd təsərrüfatının inkişafı üçün yaradılan əlverişli şərait fərdi təsərrüfatların genişləndirilməsinə, məhsul istehsalının artırılmasına, əhalinin sosial rifah halının yüksəldilməsinə səbəb olmuşdur. Kənddə sahibkarlığın inkişafının nəticəsidir ki, hazırda burada 5 lavaş sexi, 1 kərpic istehsalı müəssisəsi və 3 gəc sexi fəaliyyət göstərir.

Beləliklə, bütün bu qeyd edilənlər bir daha Xok kəndinin hərtərəfli inkişaf yolunda olduğunu göstərir. Kənddə istifadəyə verilən yeni obyektlər, salınmış rahat yollar kənd sakinlərinin də böyük sevincinə səbəb olmuşdur. Yaşlı sakinlərdən Davud Abbasov, Dostəli Tağıyev bizimlə söhbətlərində görülən işlərin vətəndaşların rahat yaşayışına xidmət etdiyini vurğuladılar, bütün bunlara görə kənd sakinləri adından dövlətimizə minnətdarlıqlarını bildirdilər.

***Bəli, Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsindən öz nəsibini almış Xok kəndi sakinlərinə dövlətimiz elə "Heydər Əliyev ili"ndə böyük sevinc yaşatdı. İndi kənd sakinləri yaradılmış şəraitdən ürəkdolusu danışır, bu sevinc hissini bura yolu düşən hər kəslə bölüşürlər. Bu sevinc hissinin yaratdığı gələcəyə olan inamlı baxışları, bir də bu baxışları formalaşdıran yeni quruculuq mədəniyyətini duymamaq mümkün deyil...***

**Səbuhi HƏSƏNOV**

## Dövlət proqramına uyğun olaraq, yeni meyvə bağları salınır



Naxçıvan Muxtar Respublikasında ətraf mühitin qorunması, ekoloji problemlərin həll edilməsi və əlverişli ekoloji mühitin yaradılması daim diqqət mərkəzində saxlanılır. Yeni sənaye sahələrinin yaradılması, müxtəlif təbii amillər yaşıllıqların əhəmiyyətini daha da artırır. Regionda kənd təsərrüfatının inkişaf etdirilməsi yaşıllıqların, xüsusilə yeni meyvə bağlarının salınmasını zəruri edir. Əvvəlki illərdə olduğu kimi, cari ildə də Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, yeni meyvə bağlarının salınması davam etdirilir. Nazirlikdən verilən məlumata görə, hazırda tingyetişdirmə sahələrində əkin standartlarına uyğun 300 min ədəddən artıq ting mövcuddur. Cari ilin yaz mövsümündə bu günə qədər Şahbuz, Babək, Ordubad və Sədərək rayonları ərazilərindəki 11,7 hektar sahədə 9 min 200 ədəd meyvə tingi əkilmişdir.

Əvvəlki illərdə olduğu kimi, bu il də yerli şəraitə uyğun tinglərə olan tələbatı ödəmək məqsədilə yeni toxmacarlıq, qələmkökləndirmə sahələri yaradılmış və bu sahələrdə 40 min ədəd iydə, üzüm, çinar qələmləri əkilmişdir. Hazırda regionun iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq mövsümlə əlaqədar tingyetişdirmə sahələrində və yeni meyvə ağacları əkiləcək ərazilərdə işlər davam etdirilir.

## Cari ilin ilk iki ayında 100 POS-terminal quraşdırılıb

***Bu ilin ilk 2 ayı ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 18 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.***

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən bildiriblər ki, həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 5 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 7 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta vəsaitlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

Operativ vergi nəzarəti tədbirləri zamanı 3 vergi ödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 2 vergi ödəyicisinin xüsusi razılıq tələb olunan fəaliyyət növləri ilə belə razılıq olmadan məşğul olmaları, 1 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib. Qeyd olunan dövr ərzində 8 obyektdə nəzarət-kassa aparatlarının quraşdırılması təmin edilib.

Bəhs olunan dövrdə vergidən yayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 8 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb və müşahidələr zamanı müşahidəyədək olan dövriyyələrlə müqayisədə 11442.0 manat dövriyyə artımına nail olunub. Bu da hər bir vergi ödəyicisinə məxsus hər bir obyekt üzrə orta hesabla 28,6 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

Qeyd edək ki bu ilin ilk 2 ayı ərzində bank orqanları tərəfindən ticarət, iaşə, xidmət və dövlət rüsumu alan idarə, müəssisə və təşkilatlarda qoyulmuş 100 ədəd POS-terminalın vergi orqanlarında qeydiyyatdan keçirilməsi təmin edilib. Bu işlər sürətlə davam etdirilir.

## Ali təhsil ocağında elmi-praktik konfrans keçiriləcək

*Aprelin 15-də Naxçıvan Müəllimlər İnstitutunda Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş "Təhsil kurikulumları: nəzəri problemlər" mövzusunda elmi-praktik konfrans keçiriləcəkdir.*

Naxçıvan Muxtar Respublikasındakı ali, orta ixtisas və ümumtəhsil məktəbləri əməkdaşlarının məruzələrlə çıxış edə biləcəyi elmi-praktik konfransda "Kurikulumda fənlər üzrə standartlar", "Kurikulumda əsas pedaqoji anlayışlar", "Kurikulumda strategiyalar", "Kurikulumda təlimin təşkilinə verilən tələblər", "Kurikulumda yeni qiymətləndirmə mexanizmi", "Kurikulumda müasir təhsillə bağlı yanaşmalar", "Kurikulumda dərs nümunələri" adlı 7 bölmə üzrə məruzələr dinləniləcəkdir.

Qeyd edək ki, konfransın materialları məcmuə şəklində nəşr olunacaqdır.

Məruzələr 10 aprel 2014-cü il tarixədək Naxçıvan Müəllimlər İnstitutunun elmi hissəsində qəbul olunacaqdır.

**Xəbərlər şöbəsi**

# Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində

## *dövlət proqramının qarşıya qoyduğu vəzifələrin icrası diqqət mərkəzindədir*

***“Fiziki imkanları məhdud olan uşaqlar burada oxuyacaqlar. Onlar cəmiyyətdən kənarda qalmayacaqlar. Azərbaycanda elə şərait yaradılmalıdır ki, bütün vətəndaşlar onların fiziki imkanlarına baxmayaraq, ondan asılı olmayaraq, cəmiyyətdə öz yerini tuta bilsin”.*** *Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2010-cu il oktyabr ayının 5-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin açılışı mərasimində söylədiyi bu fikirlər hər bir vətəndaşın taleyi üçün cavabdeh olan, hər bir vətəndaşın Prezidenti olacağına söz verən dövlət başçısının müdrik tövsiyəsi və bu kateqoriyadan olan vətəndaşlara xüsusi diqqətinin təzahürüdür. Yüksək dəyərlərə malik, Vətən sevgisini ürəyində daşıyan insanı ən dəyərli milli sərvət hesab edən dövlət başçısı ölkənin əsas düşüncə mərkəzlərindən biri olan Naxçıvanda o zaman bu mesajı verməklə Azərbaycanın sürətlə inkişaf edən bu diyarının digər regionlar üçün nümunə olduğunu ifadə etmişdir.*

Ötən illərin təcrübəsi göstərdi ki, Naxçıvan Muxtar Respublikasında nəinki bu sahədə ən müasir təcrübə tətbiq edilir, hətta Naxçıvanda sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən işlərin özü bir model rolunu oynayır. Muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının təmin olunması, onların sosial müdafiəsi və cəmiyyətə inteqrasiyaları diqqət mərkəzində saxlanılır. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində yeni mərhələnin başlanğıcını qoymuşdur. Əqli və fiziki imkanlarının məhdudluğundan asılı olmayaraq, hər bir insanın cəmiyyətə inteqrasiyasının təmin olunması təkcə müəyyənləşdirilən vəzifə deyil, həm də müqəddəs bir vəzifədir. Əgər ölkəmizdə məhdud fiziki imkanlı insanların xüsusi təhsili haqqında mövcud olan qanunvericilik bazası onların, sadəcə, təhsil almasını nəzərdə tuturdusa, yeni qəbul edilən proqram bu kateqoriyadan olan uşaqların digər uşaqlarla birgə təhsilə cəlb edilməsini, onların sosial reabilitasiyasını və cəmiyyətə uyğunlaşmasını hədəfləmişdir. Bu istiqamətdə isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin üzərinə böyük vəzifələr düşür. Qeyd edək ki, 2010-cu ildən fəaliyyət göstərən mərkəzdə məhdud fiziki imkanlı şəxslər üçün informasiya texnologiyalarının tədrisi, görmə qabiliyyəti məhdud olan uşaqlara informasiya texnologiyaları sahəsində bilik və bacarıqların aşılanması sahəsində qazanılan təcrübə proqramın icrası istiqamətində işlərin daha da genişləndirilməsinə imkan verir. Mərkəzdən verilən məlumata görə, hazırda buradakı brayl kitabxanası, eşitmə qabiliyyəti məhdud şəxslər üçün audiokitabxana, zehni inkişafında və nitqində qüsur olan uşaqların reabilitasiyası məqsədilə yaradılan kinekt otağı, defektoloji bölmə fəaliyyətini günün tələbləri səviyyəsində qurmuşdur.

Proqramın qəbulundan ötən müddət ərzində bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə mərkəzdə bu kateqoriyadan olan 18 uşağın iştirakı ilə yarışlar təşkil edilmişdir. Bu isə proqramdan irəli gələn vəzifələrin reallaşdırılması üzrə Tədbirlər Planının III hissəsinin III bəndində nəzərdə tutulan “Sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə tədbirlərin (yaradıcı müsabiqələrin, bilik və idman yarışlarının və sair) keçirilməsi” müddəasına uyğundur. Qeyd edək ki, bu bəndin icrası Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə yanaşı, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinə, eləcə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə həvalə olunmuşdur.

Bundan əlavə, mərkəzdən deyirlər ki, bacarıq və maraqları nəzərə alınan sağlamlıq imkanları məhdud 5 uşaq brayl kursuna, müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərini artırmaq məqsədilə bu kateqoriyadan olan daha 18 uşaq mərkəzdə təşkil olunan məşğələlərə (kompüter kurslarına) cəlb olunmuşlar. Qeyd edək ki, bu kateqoriyadan olan uşaqların məktəbdənkənar müəssisələrin dərnəklərinə cəlb edilməsi Tədbirlər Planında bütün tədris ili ərzində nəzərdə tutulmuşdur. Zehni inkişafında, həmçinin nitqində qüsurları olan uşaqların reabilitasiyası məqsədilə isə defektoloji bölmədə 15 uşağa təlim-məşğələlərin keçilməsinə başlanılmışdır.



Artıq mərkəzin potensialı imkan verir ki, məktəb təhsili olmayan şəxslər üçün brayl əlifbasının tədrisi üzrə kurslar da təşkil edilsin. Bu istiqamətdə mütəmadi iş aparan Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin kollektivi əsas diqqəti 18 yaşdan yuxarı görmə qabiliyyəti məhdud şəxslər üçün brayl əlifbasının tədrisi üzrə kursların tədrisinə yönəltmişdir.

Dövlət proqramına uyğun olaraq, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil məktəblərinə gedə bilməyən uşaqların təhsil almasını təmin etmək məqsədilə Distant Təhsil Mərkəzinin yaradılması istiqamətində də müəyyən işlər həyata keçirilmişdir. Mərkəzdə çalışan mütəxəssislərin hazırlıq səviyyəsi imkan verəcək ki, yaradılacaq mərkəz fəaliyyətini tələblər səviyyəsində qura bilsin. Artıq distant təhsilə cəlb ediləcək hərəkət qabiliyyəti məhdud 19 uşaq müəyyənləşdirilmişdir. Qarşıdakı dövr ərzində isə onların distant təhsil almaları üçün lazımi avadanlıqlarla təmin olunması məsələsi durur.

Ümumilikdə isə həyata keçiriləcək bütün bu tədbirlər sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə daha tez inteqrasiyasına xidmət edəcək. Qeyd edək ki, bir müddət öncə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin açıqladığı məlumatda deyilirdi ki, Naxçıvanda 2142 sağlamlıq imkanları məhdud olan uşaq qeydiyyatdadır. Onlardan 840 nəfəri ümumtəhsil məktəblərində təhsil alır. Təkcə 2013-cü ildə bu kateqoriyadan olan 76 uşaq ümumtəhsil məktəblərinin birinci siniflərinə qəbul edilmiş, bəhs olunan dövrdə 38 uşaq isə məktəbəqədər təhsil müəssisələrinə cəlb olunmuşdur.

**✍ Elnur KƏLBİZADƏ**

*Naxçıvanın tarixi yaddaşı*

# Kəndlərimizin tarixi və adları haqqında nə bilirik?

### *Əvvəlcə Nehrəm toponimi haqqında*

Babək rayon inzibati ərazi vahidinə daxil olan Nehrəm kəndi Naxçıvan şəhərindən 15 kilometr aralı, Naxçıvan-Culfa avtomobil yolunun sağında, Araz çayının sol sahilində, strateji cəhətdən əlverişli, düzənlik və geniş bir sahədə yerləşir. Tarix boyu kəndin əsas məşğuliyyətini taxılçılıq, üzümçülük, bostançılıq, heyvandarlıq, maldarlıq, tərəvəzçilik təşkil etmiş, kəndin Çamur ağıl, Sarı ağıl, Ölən şəhər, Kənd dərəsi, Şorsu, Göy ağıl, At ağıl, Bağırsaqdərə, Qızıl gədik kimi ərazilərində arpa, buğda, sumax, darı, kərdiyər, pərinc, mərcimək, noxud, kərəsnə, paxla, kəlül, gənəgərçək, pambıq, üzüm kimi məhsullar əkilmiş, əkin sahələri Naxçıvançaydan çəkilən Nehrəm arxı və ondan ayrılan digər arxlar vasitəsilə suvarılmışdır.

Nehrəm tarixi kənddir. 1885-ci ildə burada ilk dünyəvi məktəb açılmışdır. C.Məmmədquluzadə 7 ildən çox (15 yanvar 1890-10 iyul 1897) Nehrəm məktəbində müəllim və nəzarətçi (müdir) işləmiş, yerli əkinçilərin əməyini yüngülləşdirmək məqsədilə 1893-cü ildə Tiflisdəki “Ekker” firmasından kəndə ilk dəmir kotan gətirməyə nail olmuşdur. Yazıçı “Kişmiş oyunu”(1892), “Danabaş kəndinin əhvalatları” (1894), “Danabaş kəndinin məktəbi”(1896) əsərlərini burada yazmış, mahalda ilk dəfə olaraq qızları təhsilə cəlb etmiş və məktəbdə tarixşünaslıq muzeyi yaratmışdır.

Nehrəm kəndi 1590-cı ildə Naxçıvan, 1728-ci ildə isə Qışlağat nahiyələrinin tərkibində olmuş, 1925-ci ildən Tumbul, 1933-cü ildən Naxçıvan, 1978-ci ildən isə Babək rayonunun inzibati ərazi vahidlərinə daxil olmuş və kəndin adı tarixən eyni fonetik variantda yazılmışdır. Xalq etimologiyası toponimin yaranma tarixini Nuh Peyğəmbər dövrünə aid edir. Yerli əhali arasında və bəzi mənbələrdə belə fikir əksini tapır ki, Nuh Peyğəmbər ilk dəfə Naxçıvan ərazisində (Gəmiqayada) yer üzünə çıxdığı zaman onun adamlarının məskən saldığı kəndlərdən biri də Nehrəm olmuş və kəndin adı da Nuh Peyğəmbərin adı əsasında yaranmışdır. Bu fikir bəzi müəlliflər tərəfindən müdafiə olunsa da, kənd adının izahı üçün əsas ola bilmir. Çünki toponimi Nuh+rəm şəklində komponentlərə ayırmaq olmaz.

Bu fikirdən fərqli olaraq, XIX-XX əsrlərə aid rus tədqiqatçıları yazırlar ki, “Nehrəm” sözü “nəhr” sözü ilə əlaqədardır. Kənd Naxçıvançayla Əlincəçayın kəsişdiyi ərazidə, Araz çayının suyu bol olan hissəsində yerləşdiyi üçün belə adlandırılmışdır. Naxçıvan şəhərində su şəxsi adamların, mülkədarların idarəsi altında olduğundan əhali sudan kütləvi şəkildə istifadə edə bilmirdi. Ancaq Nehrəm kəndində sudan ümumi istifadə olunduğu üçün kəndə “bütün icmaya, ümumi kütləyə məxsus su” anlamı bildirən “Nehrəm” adı verilmişdir. Deməli, belə qənaətə gəlmək olar ki, kəndin adı “nehr” – böyük çay və “əm” – icma, cəmiyyət sözlərinin birləşməsindən ibarət olub, mənası “böyük arx və ya çay kənarında yaşayış məskəni” deməkdir. Nehrəm toponiminin nəhr-çay, su ilə bağlı olması fikrini kəndin relyef mövqeyi, üç çay arasında – Əlincəçay, Naxçıvançay və Araz çayının qovuşduğu vadidə yerləşməsi də təsdiqləyir.

### *“Çeşməbasar” “saf su”, “saf bulaq” mənasında işlənən addır*

Qədim tarixə malik Çeşməbasar kəndi Babək rayonu ərazisində, Naxçıvan-Ordubad avtomobil yolunun kənarında yerləşir. Kəndin salınma tarixi dəqiq məlum deyil. XIX əsrə aid mənbələrdə toponimin “Çeşməsara” və “Çeşməbazar” variantlarına da rast gəlinir. Faktlar sübut edir ki, kənd tarixən mövcud olmuş, ancaq müxtəlif səbəblər üzündən bir neçə dəfə dağılmış, sonra kənddə həyat yenidən bərpa olunmuşdur. Məsələn, 1827-1828-ci illərdə baş vermiş rus-İran müharibəsi zamanı Çeşməbasar kəndinin əhalisi İrana və Naxçıvanın digər kəndlərinə köçmüş, qonşu Güznüt kəndindən 45 ailə İrana, 2 ailə İrəvan əyalətinə, 5 ailə Naxçıvanın ayrı-ayrı kəndlərinə köçmüş, hər iki kənddə yaşayış olmamışdır. Ancaq bu kəndlərdə yaşayışı təmin etmək üçün Abbas Mirzə hər güznütlüyə, bütünlüklə, səkkiz min manat gümüş pul təyin etmiş, ətraf kəndlər və Mərənddən buraya ailələr köçürmüşdür. Həmin dövrdə yaşayış olmayan Çeşməbasar kəndi “Küznüt kəndinin əkin sahələri” olmuş, ancaq az sonra vaxtilə kənddən köçmüş ailələr geri qayıtmış, kənddə yaşayış təmin olunmuşdur. Çeşməbasar kəndi 1905-1907-ci illərdə yenidən boşalmış, əhalinin xeyli hissəsi (əsasən, qadınlar və uşaqlar) başqa yerlərə köçmüşdür. Ancaq naxçıvanlıların qəhrəmanlığı sayəsində daşnak Andranik ərazidən qovulduqdan sonra yurd-yuvasından didərgin düşmüş əhali geri qayıtmışdır. Kənd əhalisi geri qayıdarkən Araz kənarındakı keçmiş Yamxana kəndində məskən salmış, sonra öz kəndlərinə köçmüşdür.

Xalq etimologiyasına görə, Çeşməbasar “su basan yer” deməkdir. Mənbələrdə kəndin “bulaq suyunun suvara bildiyi ərazidə yerləşdiyi üçün belə adlandırıldığı” qeyd olunur. Digər tədqiqatçıların fikrincə isə adın mənşəyi “çeşmə” (bulaq) və “basar” (ətraf ərazi) sözlərindən yaranıb, “bulaq ətrafı” mənasını verir. Aydındır ki, “Çeşməbasar” adı “çeşmə” və “basar” komponentlərindən ibarətdir. “Çeşmə” “bulaq, dirilik bulağı, həyat bulağı, göz bəbəyi” mənasını bildirir. Adın ikinci komponenti “basar” və “bazar” variantlarında özünü göstərir və bəzi mənbələrdə “Çeşməbazar” şəklində də yazılır.

Onu da qeyd edək ki, qədim türklərdə “Bazar” adlı tayfa olub. Bunu nəzərə alan tədqiqatçıların bir qismi toponimin bazar komponentini həmin tayfa adı ilə əlaqələndirir və Qarğabazar, Bazar yurdu və Bazar düzü oronimlərinin mənşəyinə bu mövqedən yanaşırlar. Ancaq qeyd etmək lazımdır ki, Çeşməbasar və Qarğabazar toponimlərinin “basar//bazar” komponenti tayfa adı ilə bağlı deyil. Bu söz qədim türk dillərində “cərgə”, “sıra”, “silsilə”, “dil formalı şiş uclu qaya”, “üst-üstə düşmüş buzlaq daşları”, yaxud “bir şeyin (adamların, quşların və hətta cansız obyektlərin, məsələn, buzlaq daşlarının) bol yeri, yığın yeri” mənalarında işlənmişdir. Digər tərəfdən, orta əsrlərdə Azərbaycanda “basar” dedikdə çayın və ya bulaqdan (kəhrizdən) çəkilmiş arxın suvara bildiyi əkin sahəsi nəzərdə tutulurdu. Biz də bu mövqedən çıxış edərək belə qənaətə gəlirik ki, “Çeşməbasar” kənd adı “bol, bolluq” anlamında işlənərək “saf su, saf bulaq, çoxlu çeşməsi, təmiz suyu olan yer” mənasını ifadə edir. Çeşməbasara yaxın ərazidə – Naxçıvanın 7 verstliyində dağ çayının axarı boyunca “Naxışnərgiz” adlı karbonat bulaqlara rast gəlinməsi və kəndin ərazisindən bulağın çıxması bu adın yaranmasına səbəb olub. Qarğabazar oroniminin ikinci komponenti də bu qəbildəndir. Oronimin tərkibindəki, bazar sözü “cərgə”, “sıra”, “silsilə”, “dil formalı şiş uclu qaya”, “üst-üstə düşmüş buzlaq daşları”, “qarğa, quzğun bol olan yer”, “qarğa, quzğun yaşayan qaya” mənasını bildirir.

**Adil BAĞIROV**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, filologiya elmləri doktoru***

***Şahbuz rayonunun Kolanı kəndində “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda tədbir keçirilmişdir.***

## Şahbuzda maarifləndirici tədbir

Tədbiri Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova açaraq belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışmışdır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə sağlam həyat tərzinin aşılanmasında qadının rolu” mövzusunda çıxış edərək bildirmişdir ki, ailə mühiti yeni nəsil üçün birinci məktəbdir. Uşaq danışığı valideynlərindən öyrəndiyi kimi, yaşayış əlifbasını, yəni həyat tərzini də onlardan öyrənir. Bu səbəbdən həm ailədə, həm də cəmiyyətdə qadının üzərinə daha çox məsuliyyət düşür. Ailə dəyərlərini qoruyub saxlayan, nəsildən nəslə ötürən qadındır.

Vurğulanmışdır ki, bugünkü uşaqlar və gənclər müstəqil Azərbaycanın gələcəyidirlər. Bu baxımdan gənclərin gələcəkdə layiqli ailə qurmaları və bu ailənin bütövlüyünü qoruyub saxlamaları üçün onlara sosial-hüquqi qanunların, milli-mənəvi dəyərlərin öyrədilməsini, onların fiziki cəhətdən sağlam, yaradıcı əməyə can atan insan kimi formalaşmasını, zərərli vərdişlərdən qorunmasını, təhsil-tərbiyə məsələlərini qadınlarımız daim diqqət mərkəzində saxlamalıdırlar.

Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədr müavini Arif Ağayev “Qadın hüquqları”, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva “Keser əməliyyatının ana və uşağa mənfi təsiri” mövzularında çıxışlar etmişlər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmış, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə muxtar respublikanın bugünkü ədəbi mühiti nümayəndələrinin yazdıqları şeirlərdən nümunələr seçmək istədim. Bir-iki şeri çıxmaq şərti ilə poetik duyumu, tərənnüm olan şeir nümunəsi tapa bilmədim.*

# Biz nə oxuyuruq və ya nə oxumalıyıq?

...Söz Ulu Tanrının bizə bəxş etdiyi nemətlərdən biri, mənəvi dünyamızın açarıdır. Xoşbəxtlikdən söz sarıdan Azərbaycan xalqının bəxti gətirib. Dünyanın mənəm-mənəm deyən söz meydanına çıxarmağa qüdrətli söz sərraflarımız var. Əlbəttə, hamı Füzuli, Nəsimi, Hüseyn Cavid, Səməd Vurğun, Məmməd Araz ola bilməz. Heç bu cür düşüncə tərzi də düzgün deyil. Hər bir qələm sahibinin öz duyğuları, düşüncələri, tərənnüm və təsvir üslubu, təfəkkürü, sözə fərdi münasibəti var. Amma ən məşhur qəzəlxan da, heca vəznində yazan da, sərbəst şeir qoşan şair də ana dilimizin ahəng qanununa, qrammatik qaydalarına, şeir üçün vacib sayılan vəznə, qafiyəyə, daxili bağlılığa, bədii məzmuna, ən çox da özünəməxsusluğa, əsl şeriyyətə mütləq əməl etməlidir. Min dəfə deyilmiş, qulağı döyənək etmiş, nimdaşlaşmış məlum qafiyələri bugünkü poeziyada işlətmək daha əvvəlki effekti vermir. Atalar demişkən, sözün varsa, danış, yoxdursa, başqalarını dəng etməyin əbəsdir.

Yazımızın əsas mövzusuna keçməmişdən onu da qeyd edim ki, son illər muxtar respublikamızda kitab çapında xüsusi bir canlanma müşahidə olunur. Bu da regionda yazıçı və şairlər üçün yaradılan imkanların nəticəsidir. Vaxtilə yerli müəlliflər kitab çapı üçün ölkə paytaxtına üz tuturdular. İndi regionda fəaliyyət göstərən nəşriyyatlar bu sarıdan müəlliflərin problemlərini aradan qaldırıb. Əcəmi Nəşriyyat Poliqrafiya Birliyində dünyanın müasir mətbəələrində istifadə olunan çap avadanlıqları quraşdırılıb. Halbuki qonşu ölkələrin yaxın vilayət mərkəzlərində belə modern nəşriyyat mövcud deyil. Ancaq bir məsələ var. O da bundan ibarətdir ki, nəşr olunan şeir kitablarının sayı çoxalsa da, onların əksəriyyəti oxucu tələbini qəti ödəmir, əksinə, zövqlərin korlanmasında, əsl mənada, başlıca rol oynayır. Həmin "şeir kitablarında" dərc olunan "şeirlərdə" qafiyə xatirinə yerinə düşməyən elə sözlər yan-yana düzülüblər ki, bu "şeriyyət" şeri də hörmətdən salır, şairliyi də, müəlliflərin özlərini də. Söz bu gün naşı adamların əlində qova çevrilib. Belə demək daha dəqiq olar: bu gün haqqında bəhs edilən "şeir kitabları" ilə sözümüzün əsl faciəsi başlayıb. Bu qənaətə isə ötən il nəşr olunan şeir kitablarına nəzər yetirərkən gəldim.

Onlar arasında yeni "şairə"lərə də rast gəlmək olur. Bunlardan **Zərövşən Xəlilqızı**nın adını xüsusilə qeyd etməliyəm. Ötən il nəşr olunan "Daha inanmıram mən bu sevdaya" adlı kitabda ilk olaraq "Ön söz" diqqətimizi çəkir. Oxuduqca düşünürsən ki, ədəbi mühitimizə istedadlı şairə gəlir. Yazdığı şeirlər ilk qələm təcrübəsidir. Əbülfəz Ülvi "Ön söz"də onun yaradıcılıq məziyyətləri haqqında söz açarkən müəllifin bədii nümunələrini "orijinal tapıntılar" kimi qiymətləndirir. Həmin "orijinal tapıntılar"a kitabda olduğu kimi diqqət yetirək:

*Sənsiz Zərövşənə həyat dar kimi,*
*Baxır şəklinə də diri, yar kimi,*
*Sən məni yaşatdın krallar kimi,*
*Mən səni dünyada saxlayanmadım.*

"Dar", "yar", "krallar" sözlərini "daxili qafiyə" seçən və "qələtə dönər" kimi ifadələr işlədən müəllifin "uğurlu" poetik axtarışları göz önündədir.

**Məmmədrza Püsyanlı**nın "Sarı quşun nəğmələri" adlı kitabı "Qızıldağ" mətbəəsində işıq üzü görüb. Kitabda hələ müəllifin adının düzgün yazılmadığını və nümunələrdə olan çoxlu sayda orfoqrafik səhvləri bir kənara qoyuruq. Kitabın redaktoru Asim Yadigardır. Düşündük ki, bu gün ədəbi mühitdə sayılıb-seçilən qələm sahibi Asim Yadigarın bu kitaba redaktor olması buna işarədir ki, burada oxumalı və qəzet səhifələrinə çıxarmalı nəsə var. Ya da son zamanların bir dəbi olduğunu bir anlıq unutduq. Zəif kitab müəllifləri tanınmış ziyalıların imzaları olan "Ön söz"dən və redaktor adından daha çox yararlanaraq bəri başdan sanki oxucuya demək istəyirlər ki, bax mənimlə işiniz olmasın ha, gör bu şeirləri kim bəyənib. Əlqərəz. Kitabı vərəqlədikcə bənd kənara dursun, dolğun bir misraya, poetik ifadəyə belə rast gəlmədik. Bu "şeirlərdə" o qədər məhdudluq, dayazlıq, kasadlıq var ki, "orijinallıq", "təzəlik" sözlərini bu "şeirlər" haqqında ifadə etmək həmin sözlərə hörmətsizlik olar. Zahirən qafiyələnmiş, əslində, boş, mənasız söz toplusundan ibarət misralar müəllifin təkcə mövzu kasıblığından deyil, həm də istedadsızlığından xəbər verir. Çünki söz mənəvi aləmin güzgüsüdür.

*Hanı kəndimizin o kişiləri*
*Hər səhər yağ ilə xəşil yeyərdi.*
*Hanı kəndimizin o kişiləri*
*Arvad söz deyəndə söyüb, döyərdi.*

Deyirəm, "şerə", "poeziyaya", "ifadələrə" bax.

Müəllif çəkinmədən şeirlərində özünü "şair" adlandırır. Bu yerdə M.Müşfiqin sözləri yada düşür:

*"Şairəm" söyləyir yerindən duran,*
*Adamın üzündə həya gərəkdir.*

**Sürəyya Nəsib**in "Zirvələrdə mərd dayanan qartalam" adlı kitabındakı nümunələrə diqqət yetiririk. Buradan bir nümunə seçməkdə çətinlik çəkirik. Elə buradaca müdriklərin bu sözləri yada düşür: "Deyirlər, insan özü özünü yazır. Amma yazdıqlarında başqası da özünü tapmalıdır. Sənin yazdıqlarında heç olmazsa, on adam özünü tapa bilmirsə, deməli, sən heç özünü də yaza bilmirsən". Sürəyya Nəsib kitabdakı bu nümunələri özü üçün yazıb və çap etdirib. Oxuduqca düşünürsən ki, dadsız, duzsuz, şit, bayağı dillə qələmə alınmış bu "əsərlər"ə nə ehtiyac var? Müəllif yazır:

*Mən can söyləyirəm, o canı yaxır,*
*Saçın darayanda güzgüyə baxır,*
*Dözməyib ya əvvəl, ya da ki, axır,*
*Desəm mən aynanam, vecinə gəlmir.*

Əlbəttə, poeziya haqqında dərs vermək fikrində deyiləm. Mən bunları, sadəcə, bir oxucu kimi və ya jurnalist kimi təhlil edirəm. Düşünürəm ki, əgər ədəbi mühitimizdə ədəbi tənqid olsa idi, bu gün belə yararsız kitablar Naxçıvan Yazıçılar Birliyinin kitabxanasına yol tapmazdı. Vaxtilə Naxçıvan mətbuatında ədəbi tənqidi yazılara geniş yer verilib. Ən yaxşı əsərlər belə, ədəbi tənqidin hədəfi olub. Ədəbi tənqid olmadığından müasir dövrdə oxucu zövqünü korlayan kitabların da artması təbiidir. Hansısa müəllifin inciməsindən çəkinmək lazım deyil; əsas odur ki, ədəbiyyat sağlam yolla getsin. Məhəbbəti, sevgini sözün solğunluğunda urvatsızlaşdırmaq bağışlanılmazdır. Yazmaq qəbahət deyil. Kimsə ailəsi, dostları üçün nəsə yaza bilər. Ancaq bunu kitab halında çap etdirmək... Bu, hər şeydən əvvəl, özümüzü məsxərəyə tuş etməkdir. Unutmaq olmaz ki, söz güclü bir silaha da çevrilə bilər, uğursuz küt alətə də. Burada əsas məsələ ondan necə istifadə etməkdir. Vay o gündən ki, söz naşı adamın dilində oyuncağa çevrilə. Sözün oyuncağa çevrildiyi kitablardan birinə nəzər yetirirəm. Bu, **Yaqub Şirinoğlu**nun "Tarix yazdım neçə daşa" adlı kitabıdır. Müəllif yazır:

*Günbəgün də bədən şişir,*
*Demək olmur mədən şişir,*
*Özü bilir gödən şişir,*
*Yeməyindən geri qalmır.*

Kitabda şeir adlanan bu cızma-qaralardan digərinə baxaq:

*Bel hissəmə parafini,*
*Boynuma da tok verdilər,*
*Tanımadan mən heç kimi,*
*Sağalarsan çox dedilər.*

Bu nümunələr haqqında düşünməyi oxucuların ixtiyarına buraxırıq.

Sözə xilqət, varlıq kimi baxılıb. Onun qüdrətindən şah misralar, əsərlər yaranıb. İnsanın mənəviyyatına təsir edən, onun daxili zənginliyinə səbəb olan poetik nümunələr əsrlərin dizlərini qatlayaraq dünyanın diqqətini ədəbiyyatımıza çəkib, həmin müəlliflərin adları bəşər mədəniyyətinin yaradıcıları siyahısına salınıb. Bəs indi bəziləri niyə ağıllarına gələni oxucuya sırıyırlar? Məgər bu, söz azadlığıdır?

Başqa mövzuları demirik, bu "yazarların" hansının vətənpərvərliyə həsr olunmuş bədii kamilliyi ilə seçilən şeir nümunələri var? 2012-ci ilin oktyabr ayında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu məsələyə toxunaraq demişdir: ***"Bu dövrün ədəbiyyatı, birinci növbədə, vətənpərvər ədəbiyyat olmalıdır. Ədəbi məhsullarda "Vətən" sözünü çox işlətməklə vətənpərvərlik mövzusunda ədəbiyyat yaratmaq mümkün deyil. Vətənpərvərlik yazıçı və ya şairin yaradıcılığının bütün mahiyyətini ifadə etməli, vətəndaşlıq duyğusunun daşıyıcısına çevrilməlidir".***

Kitablara yazılan "ön söz"lərdə "vətənpərvər şair", "doğma yurda bağlı şair" ifadələrinə tez-tez rast gəlirik. Sanki kitab müəllifi vətən haqqında böyük sənət əsəri yaradıb. Halbuki vətən haqqında bir şeir yazır, kitabının birinci səhifəsinə yerləşdirir. Qalan şeirlərini ya qohumuna, ya dost-tanışına, ya da nəvəsinə həsr edir. Budurmu vətənpərvər şair?

**Ələsgər Nehrəmli**nin ötən il nəşr olunan "Bir əlimdə tardı, bir əlimdə saz" kitabındakı "Vətəndaş" adlı şerinə baxaq:

*Bizik bu Vətənin torpağı, daşı,*
*Gəlin Vətən Daşı olaq, vətəndaş!*
*Vətənsiz bir insan heç insan deyil,*
*Ağıla, kamala dolaq, vətəndaş!*

Bu bəndi oxuyarkən "Vətən daşı" ifadəsini insanın həyat amalına çevirən Məmməd Arazdan bir oxucu kimi utandım. Utandım ki, bu "şeir" gözəl bir gülüstanın sinəsinə alaq otlarının toxumunu səpməyə bənzəyir. Vətən böyük məfhumdur. Onu dilə, sözə gətirəndə diqqətli olmaq lazımdır. Vətən barədə yazılmış şeirlər insana bu Vətən torpağına damcı-damcı hopmaq arzusu aşılamalıdır.

***Müqəddəs bildiklərimiz yerə düşərsə, onları öpüb uca yerə qoymaq mümkündür. Vay o gündən ki, sözün yerə düşə. Məlhəm şəfalığında, qılınc kəsərliyində olan sözümüzü gəlin tapdağa çevirməyək. Nizaminin təbirincə desək, "bulud ağlamazsa, çəmən gülməz". Niyyətimiz də elə bu bulud xeyirxahlığına qapı açmaqdır ki, nəhəng nəhrlərin qarşısındakı çör-çöpləri təmizləsin. Qoy ömrünü söz uğrunda girov qoyanların yazıları, sözün əsl mənasında, ədəbi nümunələr haqqında fikirləşək, onları oxucuya çatdıraq. Və bir daha çap və mütaliə mədəniyyətimiz haqqında düşünək: mənəvi aclığımız üçün biz nə oxuyuruq və ya nə oxumalıyıq?***

✍ **Sara ƏZİMOVA**

## Naxçıvan Aşıqlar Birliyinin konserti olmuşdur

Naxçıvan Aşıqlar Birliyi muxtar respublikamızın 90 illiyi ilə bağlı konsert proqramları ilə çıxış etməyi planlaşdırmışdır. Bu günlərdə Aşıqlar Birliyinin üzvləri Şahbuz rayonundakı Ahıllar evində olmuşlar. Konsert proqramından əvvəl Naxçıvan Aşıqlar Birliyinin sədri İxtiyar Seyidov çıxış edərək qədim diyarın 90 ildə keçdiyi çətin və şərəfli inkişaf yolundan danışmışdır. Qeyd olunmuşdur ki, bu gün Naxçıvan Muxtar Respublikası öz inkişafının intibah mərhələsini yaşayır və regionda özünün iqtisadi və mədəni nüfuzu ilə seçilən bir diyara çevrilmişdir.

Sonra Naxçıvan Aşıqlar Birliyinin üzvlərindən Əli Vayxırlının, Aydın Cəfərovun, Pünhanə Nəcəflinin, Könül Taroyevanın, Turac Bayramovanın ifasında aşıq havaları səsləndirilmişdir. Tədbirdə ifa olunan "Baş dübeyti", "Naxçıvan gülü", "Gözəlləmə", "Gəraylı" və başqa aşıq havaları tədbir iştirakçılarında şən ovqat yaratmışdır.

Tədbirin sonunda Əli Vayxırlının ifasında qara zurnada səslənən şən rəqs havası ilə ahıllar rəqsə dəvət edilmişdir.

**Əli RZAYEV**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

*2014-2015-ci tədris ili üçün Polis Akademiyasına əyani təhsil üzrə müdavimlərin qəbulunu elan edir*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 santimetr (qızlar üçün 160 santimetr), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli 16 yaşdan 18 yaşadək Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2014-cü ilin aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul edilmirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul üçün namizədlər daimi qeydiyyatda olduqları ərazi üzrə polis idarə, şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notariat qaydada təsdiq olunmuş surəti);
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);
- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;
- ilkin hərbi qeydiyyataalınma haqqında vəsiqə (əsli və notariat qaydada təsdiq olunmuş surəti);
- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;
- 9 x 12 santimetr ölçüdə 2 ədəd, 4 x 6 santimetr ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Ərizə və sənədlər 2014-cü il martın 1-dən aprelin 10-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $17^{00}$-dək qəbul ediləcəkdir.

***Əlavə məlumat üçün***
***əlaqə telefonları: 545-08-10-155, 545-08-10-160***

Abituriyentlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – 6 dəfə, qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə, qollar üzərində bədənin döşəmədən qaldırılması – 18 dəfə, arxası üstə uzanmış halda döşəmədən bədənin qaldırılması – 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda döşəmədən bədənin qaldırılması – 18 dəfə, qaçış 100 metr məsafəyə – 19 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq üzrə normativlərin ödənilməsi və seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin ***www.mia.gov.az.*** internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə komissiyanın internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş abituriyentlər dövlət hesabına geyim forması, təqaüd və yeməklə təmin edilir, yataqxanada qalırlar. Akademiyada tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiya barədə ətraflı məlumat ***www.pa.edu.az.*** internet saytında yerləşdirilmişdir.

Məzunlara "hüquqşünas" ixtisası və polis leytenantı xüsusi rütbəsi verilməklə onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

***Əlavə məlumat üçün əlaqə telefonları:***
***(012) 454-12-78, (012) 590-97-76***

*İtmişdir*

Şahbuz şəhər sakini Qurbanov Bəxtiyar Oruc oğlunun adına olan 115 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 256